1_Layout 1 13.11.2018 19:06 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**

DİN DAXİLİ QOŞUNLAR

# ƏSGƏR

№ 22 (538)

15 noyabr 2018-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda Elektron Hökumətin İnkişafı Mərkəzinin inzibati binasının açılışında iştirak edib

***Noyabrın 12-də Bakıda Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyindəki Elektron Hökumətin İnkişafı Mərkəzinin inzibati binasının açılışı olub.***

***AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.***



Dövlətimizin başçısı inzibati binanın rəmzi açılışını bildirən lenti kəsdi.

Prezidentin hüquq-mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi-şöbə müdiri Fuad Ələsgərov və Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev binada yaradılan şərait barədə məlumat verdilər.

Qeyd edək ki, Nərimanov rayonu, Atatürk prospekti 89 ünvanında yerləşən beşmərtəbəli inzibati binada "Elektron Hökumətin İnkişafı Mərkəzi" publik hüquqi şəxsin fəaliyyətinin yüksək səviyyədə təşkili üçün bütün şərait yaradılıb. Burada startaplara və innovasiyalara dəstək ekosisteminin elementləri olan "İNNOLAND" İnkubasiya və Akselerasiya Mərkəzi, həmçinin, İT savadlılığının artırılması məqsədilə İT Təlim-Tədris Mərkəzi də fəaliyyət göstərəcək.

"İNNOLAND" İnkubasiya və Akselerasiya Mərkəzinin fəaliyyəti ilə tanış olan Prezident İlham Əliyevə məlumat verildi ki, "İNNOLAND" Azərbaycanda, eyni zamanda, onun hüdudlarından kənarda özəl sektorun inkişaf etdirilməsi, innovasiyanın təşviqi və startap hərəkatının genişləndirilməsi üçün yaradılan inkubasiya, akselerasiya və araşdırma mərkəzidir. İNNOLAND Kovörkinq, İnkubasiya, Akselerasiya və İT Təlim-Tədris Mərkəzindən ibarətdir. Buradakı "Kovörkinq" mərkəzi startaplar, proqramçılar, innovasiyalar sahəsində tək və ya kiçik komanda ilə işləyən şəxslər üçün sərfəli və bir çox imkanları özündə birləşdirən iş yeridir. "İNNOLAND"da fəaliyyət göstərəcək "Kovörkinq" mərkəzi həftənin 7 günü 24 saat giriş imkanına, yüksək sürətli internetə, vahid məlumat köşkünə, mentor dəstəyinə malikdir.

İT Təlim-Tədris Mərkəzi isə gənclərə proqramlaşdırma və informasiya texnologiyaları üzrə biliklərin öyrədildiyi, kodlaşdırma bacarıqlarının verildiyi məkandır. Mərkəzdə süni intellekt, robotlaşdırma və onları dəstəkləyən proqramlaşdırma dillərinə üstünlük verilir. Dərslər "bootcamp" formatında üç ay ərzində hər gün keçirilir. İnkubasiya dövründə startaplara ideyalarının formalaşdırılmasına kömək göstərilir. Bu müddətdə əvvəlcədən müəyyənləşdirilmiş istiqamətlər üzrə ildə 4 dəfə ideya müsabiqəsi elan olunur. Müvafiq meyarlara əsasən müsabiqəyə əvvəlcədən müəyyənləşdirilmiş say üzrə ideya qəbul edilir. İnkubasiya dövründə uğurla formalaşmış ideyaların ilkin versiyaları test edilməsi, prototiplərin hazırlanması üçün akselerasiya mərhələsinə keçirilir. Bu mərhələdə komandaya mütəmadi şəkildə mentor dəstəyi göstərilir. Mərkəzdə fəaliyyət göstərən startaplar İnkubasiya və Akselerasiya dövründə "İNNOLAND"ın innovasiyalar və İKT sahəsində ümumi fəaliyyətindən də yararlanacaqlar.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva burada innovativ layihələrlə də tanış oldular.

Bildirildi ki, "Wattbooster" qurğusu elektrik enerjisinin faydalı iş əmsalını artırır, elektromaqnit sahəsinin hesabına daha çox enerji istehsal edir. Nəticədə elektrik avadanlıqlarının enerji sərfiyyatına qənaət olunur. Hələlik bu qurğu mobil operatorların antennalarının elektrik enerjisinin sərfiyyatının azaldılması üçün nəzərdə tutulub.

"Lia" adlı spinal qurğu onurğa sütununun vəziyyətinə nəzarət edir və insanda düzgün qamət yaradır. Mikrokontroller və iki sensordan ibarət olan, çiyindən asılan "Lia" minimum 3 həftədən sonra heç bir narahatlıq hissi doğurmadan onurğa sütununu düzəltməyə kömək edir. Sensor çiyinlərin vəziyyətini müəyyən edərək duruşun düzgünlüyünü yoxlayır. İstifadəçinin duruşu səhv vəziyyətdə olduğu halda telefonuna bildiriş gəlir və qaməti düzəltmək yada salınır.





"Safee" adlı ixtira yolda təhlükəsiz şəkildə, əsasən axşam vaxtı velosiped sürmək üçün dizayn edilib. Cihaz təhlükəsizlik işarələrini velosiped sürücüsünün bel nahiyəsinə əks etdirir. Nadir cihaz istehsal olunduğu ilk gündən dünya mediasında böyük maraq doğurub. Belə ki, BBC, "Mirror", "Yahoo" və digər media qurumlarında layihə haqqında məqalələr dərc edilib və o, bir neçə qlobal mükafata layiq görülüb. Yaxın gələcəkdə kütləvi istehsalına başlanılacaq bu cihaz üçün bir sıra ölkələrdən yüzlərlə sifariş daxil olub.

"Wetravel" isə turizm şirkətləri üçün ödəmə şəbəkəsidir. Şəbəkə istifadəçisi olan şirkətlər bir-birləri ilə pul mübadiləsini ən aşağı komissiya ilə həyata keçirə bilərlər. Otellər, hostellər, aviaşirkətlər, səyahət agentlikləri və bu qəbildən digər şirkətlər platformanın imkanlarından yararlana bilərlər. "Wetravel" istifadəçilərə səyyah məlumatının, ödənişlərin asanlıqla toplanması, ən aşağı məzənnə ilə beynəlxalq ödənişlər kimi imkan yaradır. Platforma vasitəsilə 80-dən çox ölkəyə minlərlə səfər təşkil edilib.

"Namo Media" onlayn reklam idarəetmə sistemidir. "Fox", ESPN kimi böyük xəbər saytlarının reklam idarəetməsi bu sistemlə həyata keçirilir. "Namo Media" 2014-cü ildə "Twitter" şirkəti tərəfindən 50 milyon dollar dəyərində qiymətləndirilərək alınıb.

Bu startaplar azərbaycanlı təsisçilər tərəfindən hazırlanıb və qlobal bazarı hədəfləyir.

Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya "Elektron hökumət"in yeni inkişaf konsepsiyası barədə də ətraflı məlumat verildi.

Xatırladaq ki, dövlət strukturlarında və dövlət xidmətlərinin həyata keçirilməsində informasiya və kommunikasiya texnologiyalarından istifadə olunması, innovativ həllərin tətbiqi Azərbaycanda dövlət siyasətinin prioritetlərindən biridir.

Bu işlərin sürətlə həyata keçirilməsi üçün Prezident İlham Əliyev 2018-ci il martın 14-də "Elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçidlə bağlı tədbirlər haqqında" Fərman imzalayıb. Bu Fərmanla elektron hökumət sahəsində dövlət siyasətinin və tənzimlənməsinin həyata keçirilməsi məqsədilə Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində "Elektron Hökumətin İnkişafı Mərkəzi" publik hüquqi şəxs fəaliyyətə başlayıb.

## DAXİLİ İŞLƏR NAZİRLİYİNİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

***Azərbaycan Respublikasının Daxili İşlər Naziri general-polkovnik Ramil Usubovun dəvəti ilə Səudiyyə Ərəbistanı Krallığının Daxili İşlər Naziri şahzadə Əbdüləziz bin Səud bin Naif bin Əbdüləziz Al Səudun rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizdə rəsmi səfərdə olub.***



Noyabrın 4-də nümayəndə heyətini qəbul edən Daxili İşlər Naziri Ramil Usubov qonaqları salamlayaraq dəvətini qəbul edərək rəsmi səfərə gəldiyinə görə şahzadə Əbdüləziz bin Səud bin Naif bin Əbdüləziz Al Səuda təşəkkürünü bildirib, ölkələrimiz arasında son illər bütün sahələrdə əməkdaşlığın genişləndiyini vurğulayıb.

Xalqlarımız arasında çoxəsrlik tarixi, mədəni, dini yaxınlığın mövcudluğunu qeyd edən nazir dövlətlərarası əlaqələrin əsasının Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulduğunu, həmçinin, 2005-ci ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Səudiyyə Ərəbistanına rəsmi səfər etdiyini, müxtəlif sahələrdə beynəlxalq hüquqi sənədlərin imzalandığını məmnunluqla xatırladıb. O, Prezident Zati-aliləri İlham Əliyevin və kral, İki Müqəddəs Ocağın Xadimi Salman bin Əbdüləziz Al Səudun siyasi iradələri sayəsində ikitərəfli münasibətlərin dinamik inkişaf etdiyini, Səudiyyə Ərəbistanının beynəlxalq arenada Azərbaycanı tam dəstəklədiyini, bu səfərin, xüsusən cənab Naif bin Əbdüləziz Al Səudun dövlətimizin başçısı tərəfindən qəbul olunmasının daxili işlər nazirlikləri arasında əməkdaşlığın daha da genişləndirilməsinə yeni impuls verəcəyinə əminliyini ifadə edib.

Nazir Ramil Usubov müstəqilliyin ilk illərində Azərbaycanın qarşılaşdığı problemlər, torpaqlarımızın işğalı, Ulu Öndərin ali hakimiyyətə qayıdışından sonra ölkə həyatının bütün sahələrində, o cümlədən, daxili işlər orqanlarında aparılan islahatlar, cinayətkarlıqla mübarizə və ictimai asayişin qorunması sahəsində əldə edilmiş müsbət nəticələr barədə məlumat verib. Qeyd olunub ki, kriminogen durumun tam nəzarətə götürülməsi, sabitliyin bərpası Azərbaycanda bir sıra qlobal infrastruktur layihələrin reallaşmasına, iqtisadiyyata külli miqdarda xarici sərmayənin yatırılmasına, insanların təhlükəsiz, əmin-amanlıq şəraitində yaşayıb fəaliyyət göstərməsinə, hər il getdikcə daha çox səudiyyəlinin turist kimi respublikamıza gəlməsinə əlverişli şərait yaradıb.

Daha sonra regionda cərəyan edən proseslərin transmilli mütəşəkkil cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi zərurətini meydana çıxardığını, bu növ cinayətlərə, xüsusən beynəlxalq terrorçuluğa, narkotik qaçaqmalçılığına, qanunsuz silah ticarətinə, insan alverinə qarşı səmərəli mübarizə aparmaq üçün əməkdaşlığın genişləndirilməsinin, informasiya mübadiləsinin intensivliyinin artırılmasının əhəmiyyətini, daxili işlər nazirlikləri arasında əlaqələrin möhkəmləndirilməsinin, bununla əlaqədar mükəmməl hüquqi-normativ bazanın yaradılmasının əhəmiyyətini diqqətə çatdırıb. Nazir səudiyyəli həmkarının dəvəti əsasında cari il fevral ayının 19-da dost ölkəyə rəsmi səfəri zamanı "Azərbaycan Respublikası və Səudiyyə Ərəbistanı Krallığı arasında cinayətkarlığa qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında" Protokolun imzalanmasını bu istiqamətdə mühüm addım kimi dəyərləndirərək, qarşılıqlı faydalı münasibətlərin hər iki ölkənin maraqlarına və xalqlarımızın mənafelərinə cavab verdiyini vurğulayıb.

Cənab Əbdüləziz bin Səud bin Naif bin Əbdüləziz Al Səud dəvətə və yüksək qonaqpərvərliyə görə Daxili İşlər Naziri R.Usubova təşəkkür edib, bu səfərin əməkdaşlıq əlaqələrinin daha da dərinləşməsinə xidmət edəcəyinə əminliyini bildirib.

Respublikamıza ilk dəfə rəsmi səfər etməsindən, onun dinamik inkişafından, burada gedən böyük quruculuq işlərindən məmnunluğunu ifadə edən şahzadə Naif bin Əbdüləziz Al Səud həssas bölgədə yerləşən Azərbaycan və Səudiyyə Ərəbistanının möhkəm təməllərə söykənən dostluq və qardaşlıq münasibətlərinin, hər iki ölkədə sabitliyin, əmin-amanlığın təmin edilməsinin regiondakı ümumi təhlükəsizliyə müsbət təsir göstərəcəyini, Krallığın hüquq-mühafizə orqanlarının əməkdaşlığa hər zaman maraqlı olduqlarını nəzərə çatdırıb.

Səmimilik və işgüzar şəraitdə keçən görüşdə təhlükəsizlik sahəsində əlaqələrin mövcud vəziyyəti, prioritet istiqamətləri barədə faydalı fikir mübadiləsi aparılıb, qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər müzakirə olunub.

Qəbulda Azərbaycan Respublikasının Səudiyyə Ərəbistanı Krallığındakı fövqəladə və səlahiyyətli səfiri Şahin Abdullayev iştirak edib.

2_Layout 1 13.11.2018 19:02 Page 1



# BAŞ İDARƏDƏ GÖRÜŞ

Noyabrın 13-də Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov xidməti ezamiyyətini başa vuran Daxili Qoşunlar Komandanının müşaviri polkovnik Mustafa Gezeri, Ali Hərbi Məktəb rəisinin müşaviri polkovnik Hakan Başkayanı və yeni müşavirlər polkovnik Mustafa Çekiç və polkovnik Ömər Karabulutu qəbul edib.

Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyəti arasındakı qarşılıqlı xoş münasibətlərdən söz açan general-leytenant Ş.Məmmədov Türkiyə Jandarm Baş Komandanlığının Daxili Qoşunlarda xidməti ezamiyyətdə olan hər bir hərbi qulluqçusunun təlim-tədris prosesinin inkişafı və təkmilləşdirilməsi istiqamətində mühüm işlər gördüyünü diqqətə çatdırıb.

Polkovniklər M.Gezer və H.Başkaya, öz növbəsində, Daxili Qoşunlarda xidməti ezamiyyətdə olmaqdan məmnun olduqlarını ifadə edərək, bu müddət ərzində onlara göstərilən diqqət və qayğıya görə Daxili Qoşunlar Komandanına dərin minnətdarlıqlarını bildiriblər.

Qarşılıqlı fikir mübadiləsi zəminində keçən görüşdə qeyd olunub ki, iki qardaş ölkənin müvafiq qurumları arasında səmimi dostluq və hərbi əməkdaşlıq bundan sonra da uğurla davam edəcək.

General-leytenant Şahin Məmmədov, həmçinin, Daxili Qoşunlar Komandanının müşaviri vəzifəsini icra edəcək polkovnik M.Çekiçə və Ali



Hərbi Məktəb rəisinin müşaviri vəzifəsini icra edəcək polkovnik Ö.Karabuluta qarşıdakı fəaliyyətlərində uğurlar arzulayıb.

Görüşün sonunda Daxili Qoşunların Komandanı polkovniklər M.Gezerə və H.Başkayaya "Xidmətdə fərqləndiyinə görə" döş nişanı təqdim edib və xatirə şəkli çəkilib.

**leytenant Nigar Ağayeva**

# ŞƏRƏFLİ HƏRBİ XİDMƏT VƏ ZƏNGİN YARADICILIQ YOLU...

Daxili Qoşunların Nümunəvi Göstərici Hərbi Orkestri yarandığı vaxtdan bu günədək onun sıralarını tərk etməyən, formalaşması və inkişafı üçün əməyini əsirgəməyən, peşəkar musiqiçi kimi orkestrin yaddaqalan uğurlara imza atmasına öz töhfəsini verən Daxili Qoşunların Hərbi orkestr xidmətinin rəisi-baş hərbi dirijor polkovnik-leytenant İlqar Novruzovun həyat yolunda maraqlı məqamlar çoxdur. Polkovnik-leytenant İ.Novruzov 1965-ci il sentyabrın 13-də Bakı şəhərində dünyaya göz açıb. O, əslən şuşalıdır. Şuşa tarixən Qafqazın konservatoriyası adlandırılıb. Milli musiqimizin beşiyi sayılan Şuşa dahi bəstəkarların, musiqiçilərin, müğənnilərin doğma yurdudur. Şuşanın bənzərsiz, qeyri-adi, məftunedici musiqi mühiti uşaqlıq, yeniyetməlik illərində burada tez-tez olduğundan, onun da mənəvi dünyasına təsirsiz qalmayıb. Özünün dediyinə görə, ailədə bacısının fortepianoda ifası da musiqiyə maraq və həvəsini gücləndirib. Valideynləri onun musiqi təhsili almasına hər cür şərait yaradıblar və bu anlamda övladlarına dəstək olublar. Ailədə musiqi sənətinə tək o, həyatını həsr edib. Bu seçimin başlatdığı yolun diqqətəlayiq səhifələri var.

O, Bakıdakı 212 saylı orta ümumtəhsil məktəbi və Qara Qarayev adına 8 saylı musiqi məktəbində təhsil alıb. 1983-cü ildə Bülbül adına Orta İxtisas Musiqi Məktəbini fortepiano üzrə bitirib. Elə həmin ildə Şuşa və Xankəndidə respublikanın musiqi məktəbləri arasında keçirilmiş musiqi müsabiqəsində fortepiano ifaçılığı üzrə 1-ci yeri tutub. Bu müsabiqədən sonra görkəmli bəstəkar və dirijor, maestro Niyazi laureatları Bakı Filarmoniyasına dəvət edib. Burada laureatların iştirakı ilə birgə konsert təşkil olunub. Qeyd olunan konsert onun yaddaşında silinməz iz buraxıb, bir musiqiçi kimi qəlbində böyük ruh yüksəkliyi yaradıb.

Sonra 1983-cü ildə Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasına daxil olub, burada fortepiano ifaçılığı üzrə biliklərini daha da dərinləşdirib, ali musiqi təhsilinə yiyələnib. O, Konservatoriyada Azərbaycan Respublikasının Xalq artisti, professor Rauf Atakişiyevin sinfini bitirib. Həmçinin, SSRİ Xalq artisti, professor Arif Məlikovdan bəstəkarlıq dərsi alıb.

Konservatoriyada təhsil alarkən hərbi xidmətə çağırılıb. 1984-1986-cı illərdə Belarus hərbi dairəsinin hərbi orkestrində xidmət edib. Orada hərbi xidmət zamanı beş hərbi paradda musiqiçi kimi iştirakı sözsüz ki, onun üçün önəmli təcrübə olub. Hərbi xidmətdən Vətənə "çavuş" hərbi rütbəsində qayıdıb.



Nəhayət, 1990-cı ildə Konservatoriyanı uğurla bitirib. Dövlət imtahanı zamanı dahi bəstəkar Rahmaninovun fortepiano və orkestr üçün 2 saylı konsertini ifa edib. Orkestrin dirijoru isə professor Rauf Abdullayev olub. Konservatoriyanı bitirməmişdən 1 il öncə - 1989-cu ildə Gürcüstanın paytaxtı Tbilisidə beynəlxalq müsabiqənin laureatı olmaq sevincini yaşayıb, müvafiq diplomla mükafatlandırılıb.

O, 1990-1993-cü illərdə Konservatoriyanın Fortepiano kafedrasında müəllim işləyib, ölkəmiz üçün ağır olan o illərin təlatümlü hadisələrinə laqeyd qalmayıb. Ata yurdu, hər qarışına bələd olduğu, qoynunda xoşbəxt, qayğısız günlər keçirdiyi Şuşanın işğalı onu dərindən sarsıdıb.

1993-cü ilin noyabr ayında Milli Lider Heydər Əliyevin xalqa tarixi çağırışından sonra o da öz yerini, fəaliyyətinin davamını hərbi xidmətdə görür. Beləliklə, Daxili Qoşunların sıralarında hərbi xidmətə başlayır. Həmin ildə Daxili Qoşunların 99713 saylı hərbi hissəsində hərbi orkestr fəaliyyət göstərirdi. 1994-cü ilin noyabr ayının 17-də isə Daxili Qoşunların tərkibində Nümunəvi Göstərici Hərbi Orkestr yarandı. O, burada konsertmeyster, hərbi dirijor, Nümunəvi Göstərici Hərbi Orkestrin rəisi vəzifələrinə təyin olunub. Orkestrin bugünkü səviyyəyə çatmasında onun danılmaz xidmətləri var. Daxili İşlər Nazirinin və Daxili Qoşunların Komandanlığının etimadını doğrultmasının təzahürü olaraq hazırkı vəzifəyə yüksəlib.

Polkovnik-leytenant İ.Novruzovun yaradıcılığı özünəməxsus dəst-xətti, cəmiyyətin mənəvi tələbatlarından və zamanın çağırışlarından irəli gələn mövzu seçimi ilə fərqlənir.

Olduqca istedadlı və öz sənətində peşəkarlıq zirvəsinə ucalan musiqiçi, dirijor, bəstəkar kimi onun ölkəmizdə hərbi musiqi janrının inkişafına yönəlik məhsuldar fəaliyyəti dəyərli bir örnəkdir.

Milli Lider Heydər Əliyevə həsr olunan "Parlaq günəş", vətənpərvər ruhlu "Azərbaycan", "Vətən, sənə heyranam mən", "Mübariz kimi ol mübariz" mahnılarının müəllifidir. "Daxili Qoşunların Marşı", "Daxili Qoşunların Ali Hərbi Məktəbinin Marşı", "Hərbi Orkestrin Marşı" onun tərəfindən bəstələnib. Yaratdığı musiqi əsərlərinin sözləri də ona məxsusdur. Belə əsərlər həssas musiqi və poeziya duyumunun, həm də yaradıcılıq ahənginin bəhrəsidir. Onun marş və mahnıları major ladı üzərində köklənərək, nikbinlik, qətiyyət və mətinlik aşılayır.

Polkovnik-leytenant İ.Novruzov Respublika Prezidenti tərəfindən "Əməkdar artist" fəxri adı, habelə "Hərbi xidmətlərə görə" medalı ilə təltif edilib. O, Silahlı Qüvvələr veteranıdır, hərbi xidmət sahəsində bir sıra medallar və Daxili Qoşunların "Xidmətdə fərqləndiyinə görə" döş nişanı ilə mükafatlandırılıb.

Mən polkovnik-leytenant İ.Novruzovu uzun illərdir tanıyıram. Bir sıra tədbirlərdə birgə iştirak etmişik. Onun ciddiyyəti, təşkilatçılığı, geniş erudisiyası, xalqımızın mədəni irsinə ehtiramı diqqətimdən yayınmayıb. Daxili Qoşunların şəxsi heyəti arasında hörmət qazanıb. Çoxşaxəli yaradıcı fəaliyyəti ilə Daxili Qoşunların keçdiyi şərəfli yolu tərənnüm və təbliğ edir. Hərbi Orkestrin fəaliyyətinin təkmilləşdirilməsi, hərbçi musiqiçilərin yetişməsi, bilik və məharətlərinin artırılması üçün əzmlə çalışır.

Onun həyatının ən böyük arzusu isə Şuşaya qovuşmaq və qələbə marşını səsləndirməkdir.

**Yalçın Abbasov**

# DAXİLİ QOŞUNLARDA XİDMƏTƏ YENİ QƏBUL EDİLMİŞ ÇAĞIRIŞÇILARIN HƏRBİ ANDİÇMƏ MƏRASİMİ KEÇİRİLİB

**Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanının hərbi andiçmə münasibətilə əsgərlərə ünvanladığı təbriki çatdırılıb.**

Noyabrın 10-da Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının 25031 saylı hərbi hissəsində xidmətə yeni qəbul edilmiş çağırışçıların hərbi andiçmə mərasimi keçirilib. Tədbirdə Daxili Qoşunlar Komandanının 1-ci müavini - Qərargah rəisi general-mayor Tofiq Hüseynov, Veteranlar Şurasının üzvləri və əsgər valideynləri iştirak ediblər.

Mərasim Milli Lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsinin yad edilməsi ilə başlayıb. Daxili Qoşunların Nümunəvi Göstərici Hərbi Orkestrinin müşayiəti ilə Dövlət Himni ifa edilib.

Hərbi hissə komandiri polkovnik Əhliman İlmazov çıxış edərək əsgərlərə hərbi andın mənasını, öz xalqına, Azərbaycan Respublikasına sadiq olacaqlarına and içən hərbi qulluqçuların üzərinə düşən şərəfli və məsul vəzifələri, eləcə də Azərbaycan Respublikası Konstitusiyasının müvafiq maddələrinin tələblərini xatırladıb.

Daha sonra əsgərlər hərbi and içərək, Azərbaycan Respublikasının mənafeyini, onun suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini şərəflə qoruyacaqlarına, bundan ötrü canlarını belə əsirgəməyəcəklərinə söz veriblər.



General-mayor T.Hüseynov çıxış edərək Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədovun hərbi andiçmə münasibətilə əsgərlərə ünvanladığı təbrikini çatdırıb. Təbrikdə hər bir əsgərin Vətənə şərəflə xidmət edəcəyinə, Azərbaycan Respublikasının qanunlarına, hərbi anda və nizamnamələrin tələblərinə ciddi riayət edəcəyinə, eləcə də yüksək döyüş hazırlığına və möhkəm nizam-intizama malik olacaqlarına əminlik ifadə olunub.

Daha sonra əsgərlər adından çıxış edən Əli Musayev müqəddəs bayrağa əl basaraq and içdiklərini, hərb işini vicdanla öyrənəcəklərini, üzərilərinə düşən şərəfli və məsul vəzifələri layiqincə yerinə yetirəcəklərini, onlara olan etimadı hər zaman doğruldacaqlarını ifadə edib.

Veteranlar adından çıxış edən Səfxan Bayramov hərbi andı qəbul edən əsgərləri səmimi qəlbdən təbrik edib, onlara xidmətlərində müvəffəqiyyətlər arzulayıb. Qeyd edib ki, hər bir hərbi qulluqçu Vətənə, xalqa, dövlət və dövlətçiliyimizə sonsuz sədaqətlə xidmət etməli, xidmət dövründə Azərbaycan əsgərinə xas olan bütün keyfiyyətləri mənimsəməlidir.

Tədbir şəxsi heyətin təntənəli keçidi ilə başa çatıb.

**baş leytenant Xədicə Hacızadə**

*idman*

# HƏRBİ QULLUQÇULARIMIZ AVROPA ÇEMPİONATININ QALİBİ OLDULAR

***Yüksək döyüş hazırlığının qorunub saxlanılması üçün tələb olunan amillərdən biri də şəxsi heyətin fiziki dözümlülüyü, yəni fiziki hazırlığıdır. Bu baxımdan Daxili Qoşunlarda idmanın inkişafına xüsusi önəm verilir. Elə bunun nəticəsidir ki, hərbi qulluqçularımız idmanın müxtəlif növləri üzrə respublikada və xarici ölkələrdə keçirilən idman yarışlarında müsbət nəticələr əldə edir, üçrəngli bayrağımızı yüksəklərdə dalğalandırırlar. Beynəlxalq və yerli turnirlər zamanı Daxili Qoşunları təmsil edən idmançı hərbi qulluqçularımızın əldə etdiyi uğurlar artıq peşəkar idman rəsmilərinin də diqqətini cəlb edir.***

Bu il ərzində müxtəlif idman yarışlarında ölkəmizi layiqincə təmsil edən hərbçilərimizin uğurları həqiqətən də hər birimizi sevindirir.

Ötən illərdə nümunəvi hərbi qulluqçularımızın peşəkar idmanda qazandıqları nailiyyətlər barədə oxucularımıza mütəmadi olaraq məlumat verilib. Daxili Qoşunların idman şərəfini layiqincə qoruyan zabitlərimizlə bağlı yaxın günlərdə daha bir sevindirici xəbər aldıq. Belə ki, noyabr ayının 8-dən 10-dək Polşanın Plotsk şəhərində keçirilən Qaydasız döyüş MMA üzrə Avropa çempionatında, məhz noyabrın 9-u Dövlət Bayrağı günündə iki zabitimiz - kapitan Aydın Həşimov və baş leytenant İlqar Nəcəfli bütün rəqiblərini üstələyərək Avropa birinciləri olmağı bacarıblar. Qaydasız döyüş yarışında kapitan A.Həşimov 75 kq, baş leytenant İ.Nəcəfli isə 90 kq çəki dərəcələrində keçirdikləri hər üç görüşdən vaxtından əvvəl qalib kimi ayrılmağı bacarıblar.







67987 saylı hərbi hissənin qərargahında döyüş təlimi üzrə zabit kapitan A.Həşimov daim öz üzərində işləyən, peşəkarlıq vərdişlərini təkmilləşdirən hərbi qulluqçularımızdan biridir. Zabit şərəf və ləyaqətini hər zaman uca tutan kapitan A.Həşimovun idman nailiyyətlərini saymaqla bitməz. Qazandığı bu uğuru onun əvvəlki uğurlarının davamıdır desək yanılmarıq.

O, bu yarışda Rumıniya, İtaliya və Polşa idmançılarına qalib gələrək çempion adını qazanmağa müvəffəq olub.

Hazırda Daxili Qoşunların İdman komandasında məşqçi-müəllim vəzifəsini icra edən baş leytenant İ.Nəcəfli haqqında da eyni sözləri deyə bilərik. O, sözügedən yarışda İtaliya, Rusiya ve Polşa idmançılarına qalib gələrək kürsünün ilk pilləsinə kimi yüksəlib.

Dövlətimizin bayrağını hər zaman ucaldan güclü idmançılarımızla fəxr edir, uğurlarının davamlı olmasını arzulayırıq.

**leytenant Nigar Ağayeva**

# İNSAN HÜQUQLARI ÜZRƏ MÜVƏKKİL (OMBUDSMAN) APARATINDA SEKTOR MÜDİRİ HƏRBİ HİSSƏLƏRİMİZLƏ TANIŞ OLUB

2018-ci il üçün müəyyən edilmiş birgə tədbirlər planına əsasən, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatında hərbi məsələlər üzrə müdafiə sektorunun müdiri Fəzail Həsənov noyabrın 6-da 25033 saylı hərbi hissədə olub.

İlk olaraq hərbi hissənin ərazisi ilə tanışlıq olub. Daha sonra hissənin tibb məntəqəsinə, yeməkxanaya, anbarlara və əsgər yataqxanalarına ümumi baxış keçirilib, müxtəlif kateqoriyalı hərbi qulluqçularla söhbətlər aparılıb. Görüşlərin keçirilməsində əsas məqsəd İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Aparatının hərbi qulluqçuların hüquq və azadlıqlarının qorunub saxlanılması sahəsində həyata keçirdiyi fəaliyyət haqqında şəxsi heyətə ətraflı məlumat vermək, hərbi qulluqçuların hüquqi baxımdan maarifləndirilməsini təmin etmək və onları maraqlandıran sualları cavablandırmaq olub.



Qeyd edək ki, müvafiq tədbirlər planına əsasən, ilin sonunadək Daxili Qoşunların müxtəlif hərbi hissələrində Ombudsman Aparatı əməkdaşlarının şəxsi heyətlə görüşlər keçirməsi nəzərdə tutulur.

Məlumat üçün bildirək ki, belə görüşlər ötən aylarda 17071 və 17074 saylı hərbi hissələrdə də təşkil olunub.

**baş leytenant Xədicə Hacızadə**

3_Layout 1 13.11.2018 19:12 Page 1



*Şəhidlərimiz*

# Vətənin hər qarış torpağını səngər bilib qələbə əzmi ilə vuruşdu...

***Bu yeri bizlərə babalar seçib,***
***Belə məmləkəti seçənə alqış.***
***Torpağı Vətənə çevirmək üçün***
***Vuruşub canından keçənə alqış!***

Bu misralar döyüşçü-şair Elxan Xəzərin şeirindən götürülüb. Onun müharibədə şahidi olduğu hərbi qulluqçularımızın mərdlik və fədakarlıq nümunələri belə mübariz ruhlu misraları ərsəyə gətirib. Həqiqətən də doğma torpağı müqəddəs Vətənə çevirən və uğrunda vuruşub canından keçən hər bir döyüşçü əbədi ehtirama, xalq yaddaşında xatırlanmağa layiqdir. Müharibədə Vətənin hər qarış torpağı döyüşçünün səngərinə çevrilir. O odlu-alovlu səngərlərdə xalqımızın neçə-neçə ləyaqətli oğlu şəhidlik zirvəsinə ucalıb. Belə oğulların döyüş yolunu tədqiq etmək, onları geniş ictimaiyyətə tanıtmaq həm insanlıq borcumuzdur, həm də bunun tarixi yaddaş və hərbi-vətənpərvərlik tərbiyəsi baxımından böyük əhəmiyyəti var.

Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının şəhid hərbi qulluqçularından biri də əsgər Binyətov İlyas Bəybala oğludur. O, 1971-ci il fevralın 12-də Bakı şəhərində anadan olub. Ad günü anasının ad günü ilə eynidir. Bəybala Binyətovla Şamayıl Binyətovanın qurduğu çoxuşaqlı ailənin ortancıl övladlarından biri idi. Əslən Cəlilabad rayonundan olan valideynləri sonradan Bakının Lökbatan və Xırdalan qəsəbələrində (Xırdalan hazırda şəhər statusu daşıyır - Y.A.) məskunlaşıblar.

İlyas Xırdalandakı 2 və 3 saylı orta ümumtəhsil məktəblərində oxuyub. Sonra 8 saylı orta texniki peşə məktəbində təhsil alaraq suvaqçı-üzləyici, pilətəçi peşəsinə yiyələnib. Orta texniki peşə məktəbini bitirdikdən sonra Səhiyyə Nazirliyi nəzdindəki Təmir-tikinti trestində əmək fəaliyyətinə başlayıb. Burada suvaqçı işləyib. Ailə üzvlərinin dediyinə görə, qısa zamanda bacarıqlı usta kimi yetişib, əl qabiliyyəti, gördüyü işi keyfiyyətli yerinə yetirməsi ilə fərqlənib. İlyas işləyərək ailəsinə maddi cəhətdən kömək etməyə çalışıb. O, valideynlərinə, bacı-qardaşlarına qayğı ilə yanaşıb. Xeyirxahlığı ilə yaşadığı ünvanda və işlədiyi kollektivdə, dost-tanış arasında hörmət sahibi olub.



ŞƏHİD İLYAS BİNYƏTOV

1989-cu ildə İlyas Abşeron Rayon Hərbi Komissarlığı (hazırda Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Abşeron Rayon İdarəsi) tərəfindən müddətli həqiqi hərbi xidmətə çağırılıb. SSRİ Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının tərkibində (7406 saylı hərbi hissə), Rusiya Federasiyasının Kuybışev şəhərində qüsursuz hərbi xidmət keçib.

1991-ci ilin iyun ayında hərbi xidmətdən tərxis olunaraq Vətənə qayıdıb. Onu əvvəlki iş yerinə bərpa ediblər. Həmin dövrdə respublikamızda vəziyyət gərgin idi. Ermənistanın sərhəd rayonlarımıza hərbi təcavüzü davam edirdi, Dağlıq Qarabağda erməni quldurlarının törətdiyi zorakılıqlar ara vermirdi. Ölkədaxili ictimai-siyasi durum da ürəkaçan deyildi. 1991-ci ilin oktyabr ayının 18-də respublikamızın öz müstəqilliyini bəyan etməsi ilə xalqımızın həyatında yeni bir dövr başladı. Həmin ilin dekabr ayında Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının formalaşması yönündə ilk addımlar atıldı.

1992-ci ilin mart ayının 12-də isə Daxili Qoşunlar erməni işğalçılarına qarşı döyüşə başladı. Vətənin ağır günlər yaşadığı o dövrdə vətənpərvər övlad kimi İlyas da dərin sarsıntı keçirir, rahatlıq tapmırdı. O, bir neçə dəfə hərbi komissarlığa müraciət etmiş, hərbi xidmət təcrübəsi olan şəxs kimi döyüşən hərbi hissələrdən birinin sıralarına qatılmaq istədiyini bildirmişdi. İlyasa zərurət olduqda onun da ehtiyatdan çağırılacağı söylənmişdi. Nəhayət, belə bir çağırış olduqda o, heç bir tərəddüd etmədən, böyük əzmlə hərbi xidmətə yollanıb. Şamayıl ana və Bəybala kişi Vətəni qorumağa gedən oğula xeyir-dua veriblər. Atası oğluna kiçikhəcmli Quran kitabını da təqdim edib, həm özünü, həm də bu müqəddəs kitabı qorumağı tapşırıb.

Daxili Qoşunların Arxivindən verilən 527 nömrəli, 20.08.2018-ci il tarixli arayışda qeyd olunub ki, sıravi İlyas Binyətov qoşunların 5456 (hazırda 99713) saylı hərbi hissəsi komandirinin 21.09.1992-ci il tarixli, 239 nömrəli əmrilə respublika çağırış məntəqəsindən gəlmiş hesab edilərək, Dağlıq Qarabağ döyüş əməliyyatları zonasına göndərilməklə, hissənin siyahısına və bütün təminat növlərinə daxil edilib. Ailəsinin verdiyi məlumata görə, artıq həmin ilin sentyabr ayının 19-dan İlyas paytaxtımızdakı çağırış məntəqəsinə aparılmışdı. Beləliklə, o, SSRİ dövründə olduğu kimi, Daxili Qoşunların tərkibinə qəbul olunub. Həmin vaxt ön cəbhədə şiddətli döyüşlər gedirdi, qoşunların döyüşən hərbi hissələrinin itkiləri az deyildi. Döyüş zonasında hissə və bölmələrin dislokasiya yeri tez-tez dəyişirdi. Şəxsi heyətin bir hissənin tərkibindən digərinə keçirilməsi, vəziyyətin ağır olduğu istiqamətlərə cəmləşdirilməsi də müharibə gerçəkliyini əks etdirirdi. Vəziyyətin ağır olduğu istiqamətlərdən biri də Tərtər-Ağdərə bölgəsi idi. Burada 1992-ci ilin ikinci yarısından başlayaraq biz tərəfdən hücum döyüşlərinin əhatə etdiyi ərazi genişlənirdi.




Döyüşən qüvvələrimiz Tərtər-Ağdərə bölgəsində düşmənlə təmas xəttini uğurla yararaq irəliləyirdilər, həmin vaxt Ağdərə zonasında onlarla kənd və strateji yüksəkliklər düşmən tapdağından azad olunmuşdu. İlyas mürəkkəb şəraitdə döyüş tapşırıqlarını yerinə yetirmiş 5477 (hazırda 17072) saylı hərbi hissənin bu bölgədəki şəxsi heyətinin sıralarında şərəfli döyüş yolu keçib. Onun döyüşçü yoldaşı olmuş, müharibə veteranı Mübariz Məmmədovun şəhid barədə xatirələrindən bəzi məqamlar: "Biz müharibəyə birlikdə yollandıq. Möhkəm dost idik. İlyas qorxmaz, igid bir oğlan idi.

1992-ci ilin sentyabr, oktyabr və noyabr aylarında Ağdərənin Dovşanlı, Drımbon (indiki Heyvalı), Kaçaqot (indiki Yayıcı) kəndlərində döyüşüb. Çıldıran kəndinin alınmasında fəal iştirak edib. Noyabr ayının 19-u gecəsi Sırxavənd kəndinə hücuma gedəcəkdik. İlyasın xəstə olduğunu hiss etmişdim. Ona dedim, gəl sən bu hücuma getmə, arxadan kömək edərsən, patron daşıyarsan. Dedi ki, biz torpağımız uğrunda vuruşmağa gəlmişik, axıra kimi də bir yerdə olacağıq. Gecə səhərə kimi Sırxavənd kəndi yaxınlığında erməni postları ilə üzbəüz mövqe tutduq. Səhər vuruşmağa başladıq. Ermənilərin şiddətli atəşi irəli getməyə imkan vermirdi. İlyas atəş açaraq onların mövqelərinə hücuma keçdikdə düşmən gülləsinə tuş gəldi. Şəhid qardaşımızı ərazidən çıxardıq, orada bir neçə nəfər də həlak oldu. Mən onu heç vaxt unutmayacağam".

Bakıya gətirildikdən sonra şəhidin cənazəsinə atası baxış keçirib. Oğlunun sinəsindən yaralanaraq həlak olduğu təsdiq olunub. Atasının İlyasa verdiyi Quran kitabı isə şəhidin üzərində olmayıb.

Əsgər İ.Binyətov 20.11.1992-ci ildə Bakıda Şəhidlər Xiyabanında dəfn olunub. Tərtib edilmiş 16.12.1992-ci il tarixli, IV-JQ 378349 nömrəli ölüm haqqında şəhadətnamədə İlyasın 20.11.1992-ci ildə Ağdərədə döyüşdə həlak olduğu yazılıb. Məzarı üstündə də həmin tarix həkk olunub.

"Azərbaycan Respublikasının Xatirə Kitabı"nda şəhid haqqında məlumat dərc edilib. Həmin mətndə İlyasın 19.11.1992-ci ildə Sırxavənd kəndi uğrunda gedən döyüşdə həlak olduğu göstərilib.

Şəhid haqqında 1997-ci ildə "Ağrıdağ" nəşriyyatında işıq üzü görən, Əziz Ələkbərlinin müəllifi olduğu "Abşeron şəhidləri" kitabında məqalə verilib. Bununla yanaşı, şəhid hərbi qulluqçumuz barədə ayrı-ayrı qəzetlərdə məqalələr çap olunub.

Bu gün şəhidin ailəsi Xırdalanda yaşayır. Atası B.Binyətov 2014-cü ildə vəfat edib. Böyük qardaşının oğlu şəhidin adını daşıyır. Şəhidin ailəsinə dövlətimiz tərəfindən müvafiq müavinət verilir. Vaxtilə təhsil aldığı orta məktəbdə xatirə guşəsi yaradılıb.

2005-ci ildə Bakıda olan bir qrup türk zabiti şəhidin ailəsinə baş çəkib, onun xatirəsinə ehtiram göstəriblər.

**Allah rəhmət eləsin!**

**Yalçın Abbasov**

# HƏRBİ QULLUQÇULARIMIZ MİLLİ QƏHRƏMAN MÜBARİZ İBRAHİMOVUN MƏZARINI ZİYARƏT EDİBLƏR

***Nə qədər Azərbaycan var, Mübariz İbrahimov kimi oğullar da var, olub, olacaq...***



Zaman-zaman qəhrəmanlar yetişdirən, Babək, Koroğlu və digər igidləri ilə daima fəxr edən Azərbaycan torpağı bu gün də sinəsini düşmən gülləsinə sipər edən cəsur, vətənpərvər oğullarıyla öyünür. Vətən uğrunda canından keçərək əbədi həyata qovuşan, şərəflə yad edilən qəhrəmanlarımızdan biri də Mübariz İbrahimovdur.

Onun haqqında çox yazılıb, çox deyilib. Xalqımız var olduqca da yazılacaq, deyiləcək. Mübariz həmişə qəlblərdə yaşayacaq, sevgilə anılacaq, adına şeirlər yazılacaq, mahnılar qoşulacaq, yeni doğulan körpələrə Mübariz adı veriləcək. Çünki xalq Vətən uğrunda şəhid olanları heç vaxt unutmur.

Daxili Qoşunların hərbi qulluqçuları şəhidlərimizi hər zaman ehtiramla anır və məzarlarını ziyarət edirlər. Tor-paqlarımızın bütövlüyü uğrunda son damla qanınadək vuruşan, öz ölümü ilə ölümsüzlüyü qazanan Milli Qəhrə-man M.İbrahimovun dəfn edildiyi gün-dən altı il keçməsinə baxmayaraq, hər il məzarı başında ehtiramla anılır.

Noyabrın 7-də Daxili Qoşunların hərbi qulluqçuları şəhidimizin məzarını ziyarət ediblər. Daxili Qoşunların Baş İdarəsindən və 99713, 67987, 25031 saylı hərbi hissələrdən hərbi qulluqçular II Fəxri Xiyabana gedərək onun məzarı üzərinə tər qərənfillər düzüblər. Mübariz İbrahimovun şücaəti haqqında xidmətə yeni qəbul olunan əsgərlərə məlumat verilib.

Ürəyi Vətən sevgisilə alışıb yanan, illər öncə Daxili Qoşunların müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu olmuş qəhrəmanımızın keçdiyi döyüş yolunun müasir gənclərə nümunə olduğu vurğulanıb.

Qeyd olunub ki, ömrünün 22-ci baharında düşmənlə təmas xəttində erməni işğalçılarına sarsıdıcı zərbələr vuran qəhrəmanımız 6 saatdan çox təkbaşına döyüşüb, düşmənin xeyli sayda zabit və əsgərini məhv edib. Yağı düşməni, sözün əsl mənasında, vahimə içərisində saxlayan igidimizin cəsədi 141 gündən sonra ölkəmizə təhvil verilib və noyabrın 7-də böyük ehtiramla II Fəxri Xiyabanda dəfn olunub.

Fəxrlə qeyd etmək lazımdır ki, günü-gündən qüvvətlənən Azərbaycan Ordusunun Mübariz kimi oğulları çoxdur və onların hər birinin qəlbi Mübariz kimi Vətənə sevgi, məhəbbət hissləri ilə döyünür. Gün gələcək, bu oğullar həm Mübarizin, həm də onun kimi neçə-neçə şəhid oğlumuzun qisasını alacaqlar!

**leytenant Nigar Ağayeva**

# "DİNİ RADİKALİZMLƏ MÜBARİZƏ: HÜQUQİ VƏ MƏNƏVİ YANAŞMA" MÖVZUSUNDA TƏDBİR KEÇİRİLİB

***Ölkəmizdə dini etiqad azadlığı tam təmin edilir və bütün dinlərin, xalqların, etnik qrupların nümayəndələri eyni hüquqlara malikdirlər***

***Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi ilə Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi arasında dini radikalizmlə mübarizənin effektivliyinin artırılması məqsədilə Daxili Qoşunların şəxsi heyətinin maarifləndirilməsi istiqamətində birgə işin təşkilinə dair 2018-ci ilin yanvar-dekabr ayları üçün tədbirlər planına əsasən, noyabrın 7-də Daxili Qoşunların 25031 saylı hərbi hissəsində "Dini radikalizmlə mübarizə: hüquqi və mənəvi yanaşma" mövzusunda tədbir keçirilib.***



Tədbiri giriş sözü ilə açan hərbi hissə komandiri polkovnik Əhliman İlmazov mövzunun əhəmiyyətini vurğulayaraq, gəncləri radikal dini cərəyanların qurbanına çevrilməkdən qorumağın, onları vətənpərvər ruhda tərbiyə etməyin zəruriliyindən danışıb. O bildirib ki, şəxsi heyətin vətənpərvərlik hissi, mənəvi-psixoloji hazırlığı və döyüş ruhu yüksək səviyyədədir.

Daha sonra çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı bildirib ki, müasir dünyada dini radikalizm, onun fəsadı olan ekstremizm və terrorizm nəticəsində milyonlarla insan ya öldürülüb, ya da öz doğma vətənindən didərgin düşüb. O, təəssüflə qeyd edib ki, son zamanlar dünyada dini zəmində baş verən terrorun əksəriyyəti İslam dini pərdəsi altında gizlənən, lakin İslamla heç bir əlaqəsi olmayan terrorçu dəstələr tərəfindən həyata keçirilir.

Dünyada baş verən bu cür neqativ hadisələrin fonunda tolerantlıq və multikulturalizm mədəniyyətinin inkişaf etdirilməsinin vacibliyinə diqqət çəkən S.Salahlı söyləyib ki, bu baxımdan ölkəmiz dünya üçün bir nümunədir: "Azərbaycanda tarixən müxtəlif mədəniyyətlərin, dinlərin, millətlərin, etnik qrupların nümayəndələri qarşılıqlı hörmət, birgə yaşayış şəraitində bir ailə kimi yaşayıb və bu ənənə günümüzdə də davam edir. Ölkəmizdə dini etiqad azadlığı tam təmin edilir və bütün dinlərin, xalqların, etnik qrupların nümayəndələri eyni hüquqlara malikdirlər".

Azərbaycanda belə bir mühitin mövcud olmasında cəmiyyətdə formalaşmış dini dözümlülük, tolerantlıq və multikultural dəyərlərə yanaşı, düşünülmüş dövlət siyasəti də çox böyük rol oynayır. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra dövlət tərəfindən bu sahədə yaradılan bütün zəruri şərait və dəstək dünyaya örnək sayılacaq səviyyədədir. Təbii ki, digər sahələrdə olduğu kimi, dövlət-din münasibətlərinin tənzimlənməsi sahəsində Ulu Öndər Heydər Əliyevin böyük xidmətləri olub və bu siyasət dövlət başçısı İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

S.Salahlı onu da vurğulayıb ki, ölkəmizdə hökm sürən multikulturalizm və dinlərarası tolerantlıq mühitinə qarşı əsas təhdidlərdən biri dini radikalizmdir. O, dini radikalizmin yaranma səbəblərindən biri kimi İslam dini haqqında məlumatsızlıq və düzgün təqdim olunmamasını göstərib.

Dini radikalizmə qarşı mübarizədə dini maarifləndirmə tədbirlərinin əhəmiyyətindən danışan sədr müavini qeyd edib ki, bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə milli-mənəvi və dini dəyərlərin qorunması istiqamətində dövlət siyasəti həyata keçirilir. Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondunun, eyni zamanda Azərbaycan İlahiyyat İnstitutunun yaradılması bu siyasətin bariz nümunəsidir.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

**Mətbuat xidməti**

4_Layout 1 13.11.2018 19:18 Page 1



Metodiki vəsait

# DÖYÜŞ XİDMƏTİNDƏ ŞƏXSİ HEYƏTLƏ TƏRBİYƏ İŞİNİN TƏŞKİLİ VƏ KEÇİRİLMƏSİ ÜZRƏ METODİKİ TÖVSİYƏLƏR

**(əvvəli ötən sayımızda)**

**Döyüş xidməti aparılan dövrdə komandirlər və onların tərbiyə işləri üzrə müavinləri borcludurlar:**

- qarovulda (qoşun naryadında) hərbi qulluqçuların qarşısında duran tapşırıqların yerinə yetirilməsinə, təhlükəsizlik qaydalarına riayət olunmasına diqqət yetirmək;
- tərbiyə işinin səviyyəsini, zabitlərin, gizirlərin, çavuşların və əsgərlərin hərbi intizama necə riayət etməsini yoxlamaq və şəxsi heyətin mənəvi vəziyyətini öyrənmək;
- tərbiyə işi tədbirlərinin keçirilməsinə nəzarət etmək və tədbirlərdə şəxsən iştirak etmək;
- tərbiyə işinin bütün üsullarından istifadə etməklə qabaqcıl hərbçiləri, onların bacarıq və fəaliyyətlərini geniş təbliğ etmək, döyüş xidmətində yol verilmiş nöqsanlarla qətiyyətlə mübarizə aparmaq;
- daimi olaraq hərbi qulluqçuların sağlamlığının, onların döyüş xidməti aparmaları üçün bütün zəruri vasitələrlə təmin olunmalarının, normal qidalanmalarının və istirahət etmələrinin qayğısına qalmaq.

Bundan əlavə, döyüş xidmətini yoxlamaq üçün ayrılmış digər vəzifəli şəxslər tərəfindən qarovulun (qoşun naryadının) tərbiyə işi planında tədbirlərin icra vəziyyəti yoxlanılmalı və mütləq ayıq növbənin hərbi qulluqçuları ilə söhbətlər aparılmalıdır. Tərbiyəvi söhbətlərin qrup halında gündüz, fərdi söhbətlərin isə gecə vaxtı aparılması məqsədəuyğundur.

**Döyüş xidmətində tərbiyə işinin təşkili üzrə qarovul rəisinin vəzifələri:**

Qarovul rəisi həssas və ədalətli olmalı, daim döyüş hazırlığının saxlanmasında, sayıqlıqda, xidməti vəzifələrin nümunəvi icrasında və təhlükəsizlik qaydalarına riayət olunmasında şəxsi heyət üçün nümunə olmalı və göstərilənləri tələb etməli, nizamnamədənkənar münasibətlərin qarşısının alınması üzrə tədbirlər görməli, hərbi qulluqçuların davranışında qəribəliklər, qeyri-sağlam danışıqlar və əhval-ruhiyyələri barədə dərhal bölməyə məruzə etməli, xidməti yoxlayan şəxsi məlumatlandırmalıdır.

Döyüş xidmətinin aparılması zamanı qeyd olunan tədbirlərlə yanaşı, qarovul rəisi tərbiyə işini qarşıya qoyulmuş tapşırığın müvəffəqiyyətlə yerinə yetirilməsinə istiqamətləndirir, şəxsi heyətə gündəlik hadisələr barədə məlumat verir, yerinə yetirilən xidməti-döyüş tapşırığının dövlət əhəmiyyətini, nizamnamələrin ayrı-ayrı müddəalarını, mühafizə planı üzrə vəzifələri, qanunçuluğa, hərbi intizama riayət olunması üzrə tələbləri izah edir, əməliyyat şəratində dəyişiklikləri çatdırır.

Qarovul rəisi tapşırığı yerinə yetirərkən fəallara arxalanır, bilavasitə və köməkçisi vasitəsilə planlaşdırılmış tədbirlərin həyata keçirilməsində onlara köməklik göstərir, onlarla birlikdə kollektivdə əlverişli mühit yaradır, gənc əsgərlərə hərbi biliklərə yiyələnməkdə kömək edir. Şəxsi heyətin vaxtında və tam istirahətinə, qidalanmasının təşkilinə və sağlamlığının qorunmasına qayğı göstərir.

O, eləcə də hərbçilərin xidmət zamanı bacarıqlı hərəkətlərini və yol verilmiş nöqsanları nəzakətlə qeyd edərək, hər bir növbənin xidmətinə yekun vurur.

**Tapşırığı yerinə yetirdikdən sonra qarovul rəisi borcludur:**

Tərbiyə işləri üzrə müavinə döyüş xidməti zamanı həyata keçirilən təbliğat işləri və əsgərlərin ruh yüksəkliyi haqqında məlumat vermək, həmçinin, təcrübəli hərbi qulluqçuların xidməti fəaliyyətində əldə etdikləri nailiyyətləri, xidmət ərzində yol verilmiş nöqsan və çatışmazlıqları bildirmək.

**Qarovul xidmətində fəalların (təbliğatçıların) vəzifələri:**

- xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsində şəxsi nümunəliyi təmin etmək;
- ayıq növbə üçün verilmiş fərdi tapşırıqların öyrənilməsini təşkil etmək;
- ayıq növbə ilə dövri mətbuatın mütaliəsini təşkil etmək;
- ayıq növbə ilə stolüstü oyunlar keçirmək;
- radioda son xəbərlərin dinlənilməsini təşkil etmək;
- döyüş vərəqində hər bir xidmətin yekununu işıqlandırmaq.

Bundan əlavə, fəallarda tərbiyə işinin gedişində daimi sayıqlıq və döyüşə hazır olmaq, cinayətkarların silahlı basqını zamanı qəti hərəkət etmək bacarığı, özlərini ələ almaq, mətinlik, qarşılıqlı yardım kimi keyfiyyətlərin formalaşdırılması vacibdir.

Xidmətə getməzdən əvvəl şəxsi heyətin mənalı istirahətinin təşkil olunması zəruridir.

Tərbiyə işi tədbirlərinin düzgün keçirilməsi şəxsi heyətin xidməti-döyüş tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetirməsini təmin edən mənəvi-psixoloji durumunun yüksək səviyyədə saxlanılmasına imkan verir.

**Döyüş xidməti yerinə yetirildikdən sonra komandirin tərbiyə işləri üzrə müavini:**

- qarovul rəisinin və fəalların döyüş xidmətində tərbiyə işi tədbirlərinin keçirilməsi, şəxsi heyətin əhval-ruhiyyəsi və müraciətləri, xidmət zamanı təqdirəlayiq nümunələr və fərqlənən hərbi qulluqçuların mükafatlandırılması barədə təkliflərini, aşkar olunmuş çatışmazlıqların aradan qaldırılması üzrə tədbirlər haqqında məlumatlarını dinləyir;
- fəalların işinə yekun vurur;
- böyük rəislərə döyüş xidmətində tərbiyə işinin təşkili üzrə keçirilən tədbirlər və hərbi intizamın vəziyyəti haqqında məruzə edir, fərqlənmiş hərbi qulluqçuların mükafatlandırılması barədə vəsatət qaldırır.

Döyüş xidmətinin nəticələri təbliğat vasitələrində əks olunur və şifahi təbliğatda istifadə olunur.

**Mənəvi-psixoloji hazırlıq şöbəsi**

Həkim məsləhəti

# KƏSKİN RESPİRATOR İNFEKSİYALARIN EPİDEMİOLOGİYASI VƏ PROFİLAKTİKASI

***Kəskin respirator infeksiyalar (KRİ) əsasən hava-damcı yolu ilə keçən, tənəffüs yollarının selikli qişasının iltihabı və intoksikasiya ilə səciyyələnən, klinikası oxşar olan bir neçə kəskin infeksiyanın ümumi adıdır. KRİ-lər iki yüzdən artıq müxtəlif mikroorqanizmlər tərəfindən törədilir: qrip virusları, digər viruslar, bakteriyalar, virus və bakteriyaların assosiasiyaları.***



Bu infeksiyalar həm əhali, həm də hərbi qulluqçular arasında geniş yayılması ilə səciyyələnir.

Xəstəlik törədiciləri danışıq, asqırma və öskürmə aktlarından sonra xəstə orqanizmi tərk edərək ağız suyu və selik damcıları ilə hava mühitinə keçir. Burada aerozolların əksəriyyətinin quruması səbəbindən onların tərkibindəki törədicilər tezliklə məhv olur.

Yaşama qabiliyyətini saxlayan mikroorqanizmlər nəfəsalma vaxtı sağlam orqanizmə damcı, damcı-nüvə şəkilli aerozollarla daxil olaraq, bilavasitə yoluxmanı reallaşdırır. Ətraf mühit amillərinin bakteriosid təsirinə davamlılığı ilə seçilən bəzi mikroorqanizmlər qurumuş damcılardan müxtəlif səthlərə çökərək, toz hissəcikləri vasitəsilə ikincili yoluxmaya səbəb ola bilərlər.

Şəxsi heyətin xəstələnməsinin çoxillik dinamikasının təhlili göstərir ki, bəzi kənaraçıxmalara baxmayaraq, hər bir konkret zaman kəsiyində kəskin respirator xəstəliklərin səviyyəsi demək olar ki, stabil xarakter daşıyır. Yay mövsümü üçün səciyyəvi olan minimal xəstələnmə səviyyəsi payız fəslinin əvvəlindən başlayan və qışda davam edən mövsümü artımla əvəz olunur. Xəstəlik səviyyəsinin yüksəlişi hərbi qulluqçuların əksər vaxtlarını soyuqdan qorunmaq üçün isti, qapalı yerlərdə keçirmələri səbəbindən törədicinin sirayət mexanizminin fəallaşması hesabına baş verir. Orqanizmin qeyri-spesifik mühafizə amillərinin zəifləməsi məhz soyuqların düşməsi ilə eyni dövrə təsadüf edir.

Kəskin respirator infeksiyaların artımı əsasən yeni çağırışçıların qəbulu zamanı baş verir. Bu vəziyyətin reallığı xəstəliyin həmin dövrdə əhali arasında yayılma səviyyəsi, çağırış və toplanış məntəqələrində, şəxsi heyətin daşınma yollarında əks-epidemik tədbirlərin aparılmasının tamlığı və effektivliyinin səviyyəsi ilə müəyyən edilir.

Bundan əlavə, yerdəyişmə faktoru da mühüm əhəmiyyət kəsb edir. Konkret inzibati ərazidə miqrasiya proseslərinin artması, orada yaranmış immunostrukturun destabilləşməsinə və epidemik kükrəyişlərin inkişafına səbəb olur.

Hərbi hissələrdə kəskin respirator infeksiyaları əleyhinə kompleks tədbirlər 3 istiqamətdə həyata keçirilməlidir:

1. Müntəzəm surətdə yerinə yetirilən profilaktik tədbirlər.
2. Epidemiya təhlükəsi olduqda aparılan tədbirlər.
3. Epidemiyaların məhdudlaşdırılması və ləğvi üzrə aparılan tədbirlər.

Birinci qrupdan olan tədbirlərə daxildir:

- KRİ yoluxmalarının erkən aşkarı, xəstələrin təcridi və klinik göstəriş əsasında qospitalizasiyası;
- məzuniyyət və ezamiyyətlərdən qayıdanların tibbi baxışdan keçirilməsi;
- şəxsi heyətin yerləşdirilməsi üzərində tibbi nəzarətin həyata keçirilməsi;
- soyuqdəymə və donvurmaların qarşısının alınmasına yönəlmiş tədbirlərin yerinə yetirilməsi;
- hərbi qulluqçuların sağlamlığını möhkəmləndirmək üçün tədbirlərin həyata keçirilməsi;
- izolyator açılması üçün binanın əvvəlcədən müəyyənləşdirilməsi;
- sanitariya-maarifləndirmə işinin aparılması.

İkinci qrupdan olan tədbirlərə aiddir:

- gücləndirilmiş tibbi müşahidənin tətbiqi;
- KRİ-yə yoluxmuş hərbi qulluqçuların fəal aşkarı, təcridi və qospitalizasiyası;
- kütləvi tədbirlərin aparılmasının müvəqqəti məhdudlaşdırılması;
- kazarmalarda və xidməti binalarda (otaqlarda) dezinfeksiya tədbirlərinin gücləndirilməsi;
- hissənin tibb məntəqəsi və qospitalın kəskin respirator infeksiyalarla xəstələnmiş hərbi qulluqçuların kütləvi qəbulu şəraitində işləmək üçün hazırlığının yoxlanılması.

Üçüncü qrupdan olan tədbirlərə daxildir:

- xəstəliklərin yayıldığı bölüklərin (bölmələrin) şəxsi heyətinin digər bölüklərlə təmasının məhdudlaşdırılması;
- epidemiya ləğv olunana qədər yığıncaqlar və digər kütləvi tədbirlərin keçirilməsinin qadağan edilməsi;
- KRİ-yə yoluxmuş və yoluxmamış bölüklərin qida qəbulunun ayrı növbələrdə təşkili;
- cari və yekun dezinfeksiyanın aparılması;
- xidməti və yataq otaqlarında təmizlik işlərinin aparılması, mətbəx qabları və avadanlıqlarının yuyulması, həmçinin, hərbi qulluqçuların iş yerlərində mikroiqlim şəraitinə sanitariya nəzarətinin gücləndirilməsi;
- tibb məntəqəsi və qospitalda əks-epidemik rejimin gücləndirilməsi;
- təcili profilaktika tədbirlərinin aparılması.

Kəskin respirator infeksiyalar əleyhinə mübarizədə əsas etibarilə rejim-məhdudlaşdırıcı tədbirlər prioritet yer tutur. Bununla yanaşı, bu infeksiyaların profilaktikasında təbii fitonsidlərin (sarımsaq, soğan) qəbulu müsbət rol oynayır.

**DQBİ-nin Tibb xidməti**

# ŞƏXSİ HEYƏTİN VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİNİN GÜCLƏNDİRİLMƏSİNƏ TÖHFƏ VERƏN GÖRÜŞ KEÇİRİLİB

***Sumqayıt Hərbi prokuroru polkovnik Zöhrab Kazımov, Respublika Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov və "Azərbaycan veteranı" qəzetinin redaktoru Ülvi İbrahimli Daxili Qoşunların Quba rayonunda yerləşən "N" saylı hərbi hissəsində olublar.***



Qonaqlar hərbi hissə komandanlığı tərəfindən səmimiyyətlə qarşılanıb, onlara hərbi hissənin yaranma tarixi, xidməti-döyüş fəaliyyəti haqqında ətraflı məlumat verilib. Daha sonra hərbi hissənin şəxsi heyəti ilə görüş keçirilib. Görüşün əsas məqsədi əsgərlərdə vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi, hərbi nizam-intizamın və hərbi borcun dərindən dərk edilməsinin aşılanması olub.

Görüşdə çıxış edən Sumqayıt Hərbi prokuroru Z.Kazımov əsgərləri məsuliyyətli olmağa, əsgəri borclarının öhdəsindən layiqincə gəlməyə səsləyib. "Bu gün Azərbaycan Ordusunun dünyanın ən güclü orduları sırasında olması, hərbi kollektivlərdə nizam-intizamın yüksək dəyərləndirilməsi hər bir azərbaycanlı üçün qürurvericidir" - deyə o, xüsusi vurğulayıb.

Keçirilən görüşdə xidmətdə fərqlənən bir qrup hərbi qulluqçuya Respublika Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının təsis etdiyi yubiley medalları təqdim edilib.

Tədbirin sonunda hərbi hissənin şəxsi heyəti ilə birgə xatirə şəkli çəkdirilib.

**Mətbuat xidməti**

## HƏRBİ XƏBƏRLƏR -YENİLİKLƏR-



### Müdafiə Sənayesi Nazirliyi HP-7,62 hücum pulemyotunun seriyalı istehsalına başlayıb

Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində yaradılan 7,62×54 mm. çaplı HP-7,62 tipli hücum pulemyotunun seriyalı istehsalına başlanılıb. Bu barədə "AzeriDefence"yə Müdafiə Sənayesi Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Cari ilin sentyabrında Azərbaycanda keçirilmiş ADEX-2018 üçüncü Beynəlxalq müdafiə sərgisində nümayiş etdirilən, iştirakçılar və ziyarətçilər tərəfindən böyük maraqla qarşılanan hücum pulemyotu yerli mütəxəssislər tərəfindən hazırlanıb və sınaqları uğurla başa çatdırılıb.

HP-7,62 tipli hücum pulemyotu qısa məsafəli döyüşdə düşmənin canlı qüvvəsini məhv etmək və atəş vasitələrinə zərər vurmaq üçün nəzərdə tutulub.

## Allah rəhmət eləsin

Daxili Qoşunların Komandanlığı qoşunların sabiq hərbi qulluqçusu, ehtiyatda olan polkovnik Salamat Cəfərova **qızının** vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

17072 saylı hərbi hissənin komandanlığı mayor Rəhman Novruzova **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

TƏSİSÇİ:
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000